Scientific News of Azerbaijan State Academy of Physical Education and Sport
Sport Science Journal
vol. 6, № 1, 2024, pp. 108-111.

# AZƏRBAYCAN VƏ TÜRKİYƏ HƏRBİ ƏMƏKDAŞLIĞININ PERSPEKTİVİ

**E.S. Cabbarov**

*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*
elkhan.cabbarov@sport.edu.az, orcid.org/0009-0003-5529-7235

**Nəşr tarixi**
Qəbul edilib: 29 yanvar 2024
Dərc olunub: 25 mart 2024
© 2022 ADBTİA Bütün hüquqlar qorunur

**Annotasiya.** Türkiyə və Azərbaycan Avrasiya regionunun iki mühüm ölkəsidir. Etnik, dini və mədəni bağlarına görə bu ölkələr bir-birini "qardaş dövlət" kimi müəyyənləşdirirlər. Tarixi hadisələr XX əsrin əvvəllərində Türkiyə və Azərbaycanı müxtəlif istiqamətlərə sürüklədi. Osmanlı İmperatorluğunun parçalanması ilə Anadoluda Türkiyə Cümhuriyyəti quruldu. Rusiya imperiyasının süqutundan sonra müstəqilliyini elan edən Azərbaycan bolşevik işğalına məruz qalaraq, Azərbaycan Sovet Sosialist Respublikası kimi Sovet İttifaqının bir hissəsini təşkil etdi. Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa edib və onu ilk tanıyan ölkə Türkiyə olub. İki ölkə arasındakı münasibətlər, xüsusən də son illərdə yerli, regional və qlobal proseslər fonunda emosional zəmindən strateji əməkdaşlığa doğru irəliləyib. Tarixi İpək Yolunun dirçəldilməsi cəhdləri, xüsusən də xaricdən asılı olan Avropa İttifaqı ölkələrinin alternativ mənbələr axtarışı kontekstində, Xəzər nefti və təbii qazını Qərbə daşıyacaq boru kəməri layihələrinin uğurla işə salınması Türkiyəyə yeni təkan verib. Ermənistanın Azərbaycana qarşı separatçı, terrorçu hərəkətləri Qarabağ probleminin sülh yolu ilə həllini heçə endirdi və müharibəni qaçılmaz etdi. Növbəti hərbi təxribata qarşılıq olaraq Azərbaycanın özünümüdafiə etmək cəhdləri onun müharibəyə girməsi üçün hüquqi baza yaratdı. Hazırki vəziyyətdə kifayət qədər güclü orduya və iqtisadi-siyasi potensiala malik olması Azərbaycanda bir cəsarət formalaşdırdı.

**Açar sözlər:** *Türkiyə, Azərbaycan, İkinci Qarabağ Müharibəsi, Türk Birliyi, Şuşa Bəyannaməsi, kompromis, işğalçı, Vətən müharibəsi.*

Türkiyə və Azərbaycan Avrasiya regionunun iki mühüm ölkəsidir. Etnik, dini və mədəni bağlarına görə bu ölkələr bir-birini "qardaş dövlət" kimi müəyyənləşdirirlər. Tarixi hadisələr XX əsrin əvvəllərində Türkiyə və Azərbaycanı müxtəlif istiqamətlərə sürüklədi. Osmanlı İmperatorluğunun parçalanması ilə Anadoluda Türkiyə Cümhuriyyəti quruldu. Rusiya imperiyasının süqutundan sonra müstəqilliyini elan edən Azərbaycan bolşevik işğalına məruz qalaraq, Azərbaycan Sovet Sosialist Respublikası kimi Sovet İttifaqının bir hissəsini təşkil etdi. Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa edib və onu ilk tanıyan ölkə Türkiyə olub. İki ölkə arasındakı münasibətlər, xüsusən də son illərdə yerli, regional və qlobal proseslər fonunda emosional zəmindən strateji əməkdaşlığa doğru irəliləyib. Tarixi İpək Yolunun dirçəldilməsi cəhdləri, xüsusən də xaricdən asılı olan Avropa İttifaqı ölkələrinin alternativ mənbələr axtarışı kontekstində, Xəzər nefti və təbii qazını Qərbə daşıyacaq boru kəməri layihələrinin uğurla işə salınması Türkiyəyə yeni təkan verib. Ermənistanın Azərbaycana qarşı separatçı, terrorçu hərəkətləri Qarabağ probleminin sülh yolu ilə həllini heçə endirdi və müharibəni qaçılmaz etdi. Növbəti hərbi təxribata qarşılıq olaraq Azərbaycanın özünümüdafiə etmək cəhdləri onun müharibəyə girməsi üçün hüquqi baza yaratdı. Hazırki vəziyyətdə kifayət qədər güclü orduya və iqtisadi-siyasi potensiala malik olması Azərbaycanda bir cəsarət formalaşdırdı. Bu cəsarətin formalaşmasında Türkiyənin ölkəmizin yanında yer alması, onu siyasimənəvi cəhətdən dəstəkləməsi, açıq bəyanatlar verməsi və beynəlxalq güclərin təsirlərini neytrallaşdırması aparılmış döyüşlərin müsbət nəticələr verməsinə geniş imkanlar açdı. O cümlədən, vacib məqam kimi, Türkiyə ilə illərlə həyata keçirilmiş birgə hərbi təlimlər, təcrübə mübadiləsi, Türkiyə istehsalı olan hərbi texnika və silahlarla ordunun təchizatı

qələbənin qazanılmasında üstünlük yaratdı. Pilotsuz Uçuş Aparatlarından – Bayraktarlardan müharibə zamanı səmərəli istifadə Azərbaycanın zəfər qazanmasında çox təsir göstərdi. Birinci Qarabağ Müharibəsindən fərqli olaraq, İkinci Qarabağ Müharibəsində Türkiyənin artan geosiyasi nüfuzu, beynəlxalq təsir imkanları Azərbaycana siyasi, diplomatik, texniki və hərbi dəstək verməsinə tam şərait yaratdı. Belə bir vəziyyətdən düzgün istifadə edən Azərbaycan dövləti doğru qərar verməklə Ermənistan ordusu üzərində qələbəsini təmin etmiş oldu. Müharibə dövründə Azərbaycanda, o cümlədən Türkiyədə əhalinin böyük çoşqu ilə hər iki dövlətin bayrağını qaldırması, sosial şəbəkələrdə fikir və düşüncələrini ifadə etmələri münasibətlərin səmimiyyətini ifadə edirdi. Postmüharibə dövründə qardaşlıq münasibətləri daha da dərinləşməkdədir. Xüsusilə də Şuşada müttəfiqlik bəyannaməsinin imzalanması və ratifikasiya edilməsi olduqca mühüm əhəmiyyətə malikdir [1, 2].

Beynəlxalq münasibətlər sisteminin Azərbaycanın haqq işini açıq və davamlı müdafiə edən aktorları sırasında, müharibənin əvvəlində sonadək Azərbaycanın yanında olacağını bəyan edən Türkiyə Cümhuriyyətini xüsusi qeyd etmək lazımdır. Türkiyə Prezidenti ölkəsinin mövqeyini gecikmədən, müharibənin ilk günündə, yəni sentyabrın 27-də açıqlamışdı: “Bugünkü telefon danışığı zamanı bacarıq və qətiyyətinə bir daha şahid olduğum Azərbaycan Prezidenti, qardaşım İlham Əliyevə də bildirdiyim kimi, Türkiyə “bir millət, iki dövlət” anlayışı ilə azərbaycanlı qardaşları ilə həmrəyliyini gücləndirməyi davam etdirəcək... Türk milləti hər zaman olduğu kimi, bu gün də bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanındadır” [3]. Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci il oktyabrın 13-də “Haber Türk” televiziya kanalına verdiyi müsahibəsində söylədiyi “Bu gün Türkiyə bölgədə və yeni coğrafiyada çox önəmli sabitləşdirici rol oynayır. Əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın bu toqquşmaların ilk saatlarında verdiyi dəstək sabitliyi qorudu. Bəziləri bəlkə bunu anlamırlar. Əgər o sözlər olmasaydı, əgər mənim qardaşım deməsəydi ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır, bəlkə də burada vəziyyət qarışardı” [3] fikirləri ikitərəfli əməkdaşlığın ən yüksək səviyyədə olduğunu göstərirdi. Vətən müharibəsi dövründə Azərbaycan və Türkiyə arasında iqtisadi, hərbi, siyasi və humanitar sahədə mövcud olan sıx əməkdaşlıq münasibətlərini yalnız regionda formalaşan geosiyasi vəziyyət və tərəflərin çağdaş maraqları ilə əlaqələndirmək məsələnin mahiyyətini üzə çıxarmaq baxımından kifayət etməzdi. İki qardaş ölkə arasındakı əməkdaşlıq həm də tarixi əsaslara malikdir, yəni apriori təmin olunmuşdur. Tarixin müxtəlif dövrlərində onların qarşılıqlı münasibətlərinin xarakteri və məzmununa, kənar qüvvələrin iki qardaş xalq arasındakı əməkdaşlığa yanaşmasına diqqət yetirməklə bir sıra məsələyə aydınlıq gətirmək, perspektiv üçün müəyyən nəticələr çıxarmaq olar.

Sirr deyildir ki, Cənubi Qafqazda öz maraqlarını təmin etməyə çalışan iri güclər Ermənistandan vasitə kimi istifadə edərək, Türkiyə və Azərbaycan əleyhinə fəal siyasət həyata keçirmiş və keçirirlər, lakin bu iki dövlətin, onların genetik tellərlə bağlı xalqlarının eyni mövqedən çıxış etməsi, zərurət yarandıqda qüvvələrini birləşdirməyi bacarması onlara qarşı yönələn məkrli planların pozulmasına səbəb olmuş və olur. Məsələn, XI əsrdə Bizans imperatoru Roman Diogen Ön Asiya, Balkanlar və Cənubi Qafqazdakı xristian xalqları öz ətrafında birləşdirərək, türk-müsəlman amilini regiondan sıxışdırmağa cəhd etmiş, lakin qarşısında Səlcuq dövlətinin hökmdarı Alp Arslanın bayrağı altında birləşən türk xalqları və dövlətlərini, o cümlədən Azərbaycan ərazisində mövcud olan Rəvvadilər və Şəddadilər dövlətlərini görmüşdü. 1071-ci ildə tərəflər arasında baş verən Malazgird döyüşündə türk birliyi qəti qələbə çalmışdı. 1915-ci ilin fevralından 1916-cı ilin yanvarına qədər olan dövrdə baş verən Çanaqqala döyüşlərində üç min nəfərdən çox azərbaycanlı Osmanlı qoşunlarının tərkibində vuruşmuş və bu birlik nəticəsində türk hərb tarixinin ən parlaq səhifələrindən biri yazılmışdır. 103 il bundan əvvəl Nuru paşanın komandanlıq etdiyi, Osmanlı və Azərbaycan türklərindən ibarət olan Qafqaz İslam Ordusu,

əlverişli geosiyasi mövqeyə və böyük iqtisadi potensiala malik qədim türk şəhəri olan Bakını türk dünyasından qoparmaq istəyən hiyləgər və qəddar düşmənlərin layiqli cəzasını vermiş, şəhəri onların əlindən geri almışdı. Azərbaycan-Türkiyə birliyinin yenilməzliyi növbəti dəfə öz sübutunu Vətən müharibəsi zamanı tapdı [3, 4].

Erməni işğalçılarına qarşı müharibə aparan Azərbaycana Türkiyə xalqının və cəmiyyətinin təmənnasız olaraq göstərdiyi maddi və mənəvi dəstək, düşmənə qarşı aparılan əməliyyatlarda Türkiyə hərbi sənayesinin son nailiyyətlərinin tətbiqi qələbənin əldə olunmasına böyük rol oynamışdır. Necə ki, 1920–1921-ci illərdə qurtuluş savaşı aparan türk qardaşlarının çətin anında onlara minlərlə ton neft məhsulları, 500 kiloqramdan çox qızıl göndərilməsini təşkil edən Nəriman Nərimanov, "Azərbaycanın dərdi bizim dərdimiz, sevinci bizim sevincimizdir" söyləyən qazi Mustafa Kamala ünvanladığı məktubda yazırdı: "Paşam, Türk millətində bir ənənə vardır, qardaş qardaşa borc verməz, qardaş hər durumda qardaşının əlindən tutar. Biz qardaş xalqıq, hər zaman və hər fürsətdə bir-birimizin əlindən tutacağız. Bu gün yaptığımız bir qardaşın yapdığından başqa bir şey olamaz" [4].

## ƏDƏBİYYAT


1. *Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı sarsılmazdır*. [Elektron resurs] URL: https://azertag.az/xeber/Azerbaycan_Turkiye_dostlugu_ve_qardasligi_sarsilmazdir-1911854.
2. **Bayramov V.** *Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı regional təhlükəsizlik baxımından mühüm önəm daşıyır*. [Elektron resurs] URL: http://newtimes.az/az/politics/7432/.
3. *İkinci Qarabağ müharibəsi*: [Elektron resurs] URL: https://files.preslib.az/site/qarabag/xronika_az.pdf.
4. **Rzalı R., Nərimanov N.** *Alovlu vətənpərvər, böyük türk təəssübkeşi*. 525-ci qəzet, 2015, 22 aprel.


# ПЕРСПЕКТИВА ВОЕННОГО СОТРУДНИЧЕСТВА МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И ТУРЦИЕЙ

**Е.С. Джаббаров**

*Азербайджанская государственная академия физической культуры и спорта*
elkhan.cabbarov@sport.edu.az, orcid.org/0009-0003-5529-7235

**Аннотация.** Турция и Азербайджан – две важные страны Евразийского региона. Благодаря этническим, религиозным и культурным связям эти страны определяют друг друга как «братские государства». Исторические события начала XX века раздвинули Турцию и Азербайджан в разные стороны. После распада Османской империи в Анатолии была создана Турецкая Республика. Азербайджан, провозгласивший свою независимость после падения Российской империи, был захвачен большевиками и стал частью Советского Союза как Азербайджанская Советская Социалистическая Республика. Азербайджан восстановил свою независимость в 1991 году, и Турция была первой страной, признавшей ее. Отношения между двумя странами, особенно в последние годы, перешли от эмоциональной почвы к стратегическому сотрудничеству на фоне локальных, региональных и глобальных процессов. Попытки возродить исторический Шелковый путь, особенно в контексте поиска альтернативных источников внешнезависимых стран Евросоюза, успешный запуск трубопроводных проектов, которые будут транспортировать каспийскую нефть и природный газ на Запад, дали новый импульс Турции. Сепаратистские, террористические действия Армении против Азербайджана свели на нет мирное решение карабахской проблемы и сделали войну

неизбежной. Попытки Азербайджана защитить себя в ответ на очередную военную провокацию создали правовую основу для его вступления в войну. В нынешней ситуации наличие достаточно сильной армии, экономического и политического потенциала сформировало в Азербайджане мужество.

**Ключевые слова:** *Турция, Азербайджан, Вторая Карабахская война, Турецкий союз, Шушинская декларация, компромисс, оккупант, Отечественная война.*

## THE PERSPECTIVE OF MILITARY COOPERATION BETWEEN AZERBAIJAN AND TURKEY

**E.S. Jabbarov**

*Azerbaijan State Academy of Physical Education and Sport*
elkhan.cabbarov@sport.edu.az, orcid.org/0009-0003-5529-7235

**Annotation.** Turkey and Azerbaijan are two important countries of the Eurasian region. Due to their ethnic, religious and cultural ties, these countries define each other as "brother states". Historical events at the beginning of the 20th century pushed Turkey and Azerbaijan in different directions. With the disintegration of the Ottoman Empire, the Republic of Turkey was established in Anatolia. Azerbaijan, which declared its independence after the fall of the Russian Empire, was invaded by the Bolsheviks and became part of the Soviet Union as the Azerbaijan Soviet Socialist Republic. Azerbaijan regained its independence in 1991, and Turkey was the first country to recognize it. Relations between the two countries, especially in recent years, have progressed from emotional ground to strategic cooperation against the background of local, regional and global processes. Attempts to revive the historical Silk Road, especially in the context of the search for alternative sources of foreign-dependent European Union countries, the successful launch of pipeline projects that will transport Caspian oil and natural gas to the West have given a new impetus to Turkey. Armenia's separatist, terrorist actions against Azerbaijan nullified the peaceful settlement of the Karabakh problem and made war inevitable. Azerbaijan's attempts to defend itself in response to the next military provocation created a legal basis for its entry into the war. In the current situation, having a strong enough army and economic and political potential has formed a courage in Azerbaijan.

**Keywords:** *Turkey, Azerbaijan, Second Karabakh War, Turkish Union, Shusha Declaration, compromise, invader, Homeland war.*